# Könülləri ovsunlayan gözəllik



**İstər qəlbləri riqqətə gətirən muğamlarımız, istərsə də Qəbələnin əsrarəngiz təbiəti qonaqları heyran qoydu...**

Avqustun 13-dən 23-dək Heydər Əliyev Fondunun dəstəyi, Mədəniyyət və Turizm Nazirliyinin və Azərbaycan Musiqi Xadimləri İttifaqının təşkilatçılığı ilə Qəbələdə keçirilən beynəlxalq musiqi festivalının yaratdığı xoş təəssürat təkcə insanların ürəyində deyil, dağların, qayaların ucalığında da əks-səda tapdı. Dünyanın diqqəti yayın isti günlərində on gün bu yaşıl donlu qədim yaşayış məskəninə yönəldi. Əslində, bu təntənələr yalnız Azərbaycan deyil, bütün dünya üçün maraq kəsb edirdi. Tatarıstanlı diplomat Zemfira Həsənova verdiyi müsahibədə haqlı olaraq söylədi: "Qəbələdə keçirilən bu festival bütün dünya musiqi mədəniyyəti üçün böyük hadisədir."

Qəbələyə dünyanın 15 ölkəsindən, o cümlədən, ABŞ, İtaliya, Fransa, İspaniya, Meksika, İsrail və digər ölkələrdən tanınmış musiqiçilər, məşhur ifaçılar, istedadlı gənclər gəlmişdilər. Azərbaycan mədəniyyətinin təbliği istiqamətində hazırlanan bu mühüm tədbirin Qəbələdə nəzərdə tutulması təsadüfi deyildi. Belə ki, regionlardakı inkişafın nümayiş etdirilməsi və gələcəkdə Qəbələnin turizm mərkəzlərindən birinə çevrilməsi baxımından Beynəlxalq musiqi festivalının burada keçirilməsi çox əhəmiyyətli idi.

Diqqətçəkən məqamlardan biri də bu idi ki, Beynəlxalq musiqi festivalı "Qafqaz Resort" hotelinin həyətində, açıq havada təşkil olunmuşdu. Qəbələyə gələn qonaqlar həm Azərbaycan təbiətinin füsunkarlığına, həm də mədəniyyətinin ecazkarlığına heyran qalmışdılar.

Heydər Əliyev Fondunun prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanın tədbir iştirakçılarına ünvanladığı təbrik məktubunun oxunuşu, bir növ, on gün davam edəcək festivalın xeyir-duasına çevrildi.

Açılış mərasimində Respublika Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev, Bakı Musiqi Akademiyasının rektoru, festivalın bədii rəhbəri, xalq artisti Fərhad Bədəlbəyli və başqaları çıxış edərək festivalın Azərbaycan musiqi ənənələrinin dünyada tanıdılmasına öz töhfələrini verəcəyini inamla bildirdilər.

Muşiqi festivalının təntənəli açılışında İsrailin "Ranaana" Simfonik Orkestrinin və Azərbaycan Dövlət Xor Kapellasının ifasında Azərbaycan, rus və Avropa bəstəkarlarının əsərləri ifa edildi. Dahi Üzeyir Hacıbəyovun "Koroğlu" operasından könülləri ehtizaza gətirən uvertüranın səsləndirilməsi tamaşaçıları, dünyanın müxtəlif ölkələrindən gəlmiş ustad sənətkarları ovsunladı, qədim Qəbələnin ələdüşməz gözəlliklərinə qovuşaraq bütün müsafirləri öz cazibəsində saxladı.

Qonaqlar söhbət zamanı bilmirdilər ki, öz razılıqlarını, heyrətlərini, sevgi və minnətdarlıqlarını bildirmək üçün hansı sözləri desinlər. Təbiətin və musiqinin gözəlliyi hər kəsi valeh etmişdi. Bəlkə də elə buna görə idi ki, dünya şöhrətli dirijor Dmitri Yabloçkin festivalın elə ilk günlərində Azərbaycanda qalmaq istədiyini bildirdi: "Dünyanın çox yerində olmuşam. Qəbələ qədər füsunkar yer görməmişəm. Məni burada iki qüvvə saxlayır: bir Azərbaycan musiqisevərləri, bir də gözəl Qəbələ. Mənim üçün iş də problem deyil. Bakıda Musiqi Akademiyası, konservatoriya var, Qəbələdə də piano fabriki açılacaq. Mən Azərbaycan musiqisinə heyran qalmışam".

Festivalın gündəliyində təqdirəlayiq işlərdən biri də görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin xatirəsini yad etmək oldu. Bu münasibətlə təşkil olunan konsertdə Fərhad Bədəlbəyli, Murad Adıgözəlzadə və başqaları çıxış edərək təkrarolunmaz bariton səsi ilə böyük səhnələri fəth edən Müslüm Maqomayevin dünya mədəniyyətində, musiqisində tutduğu yerdən danışdılar.

Musiqi bayramının yaddaqalan günləri çox oldu. Bir tərəfdən gənc pianoçuların beynəlxalq müsabiqəsi öz işinə başladı, digər tərəfdən məşhur ifaçılar gənc həmkarları üçün ustad dərsləri keçdilər. Gənc pianoçular arasında keçirilən müsabiqədə müxtəlif ölkələri təmsil edən pianoçularla bərabər, Azərbaycandan Nərgiz Kəngərli, Abuzər Manafzadə, Toğrul Hüseynli və Günel Kazımova da iştirak edirdilər.

Müsabiqəyə qatılan ABŞ, Fransa, Bolqarıstan, Rusiya, Çin təmsilçiləri Bax və Şopenin əsərlərini səsləndirdilər. Sonda birinci yerə xorvatiyalı, ikinci yerə rusiyalı, dördüncü yerə isə azərbaycanlı Toğrul Hüseynli layiq görüldü. Üçüncü yer heç kimə verilmədi. Azərbaycanlı Nərgiz Kəngərli isə həvəsləndirici mükafat aldı.

Festivalın maraqlı günlərindən biri də Azərbaycan muğamları ilə bağlı oldu. Xalq artistləri Mənsum İbrahimovun, Aygün Bayramovanın və tarzən Elçin Həşimov, kamançaçı Elnur Əhmədovun iştirakı ilə muğam axşamı təşkil edildi. Açıq havada keçirilən bu möhtəşəm musiqi gecəsində hər tərəfi bürümüş həzin musiqi təbiətin təmiz havasına qovuşaraq insanlara ruhi qida verir, onlara sanki ana laylası çalırdı. Bütün tamaşaçılar muğamın ovsununa bələnərək sanki yeni bir aləmə - muğam dünyasına düşmüşdülər.

Festivalın bağlanış mərasimi də çox yaddaqalan oldu. Milli Məclisin deputatı Fəttah Heydərov, Musiqi Xadimləri İttifaqının sədri Fərhad Bədəlbəyli, İsrailin ölkəmizdəki səfiri Mixal Lavon Lotemi və başqaları çıxış edərək musiqi bayramının əhəmiyyətindən danışdılar.

Musiqi ilə başlanan festival musiqi ilə də sona çatdı. Musiqi bayramı münasibətilə gecənin atəşfəşanlığı Qəbələ dağlarının və meşələrinin yaşıl işığına qarışaraq qeyri-adi bir mənzərə yaradırdı. Yəqin ki, dünyanın müxtəlif ölkələrindən Qəbələyə gəlmiş insanlar bu yerlərdən ayrıldıqdan sonra da uzun müddət Azərbaycanda gördükləri xoş münasibəti, insanların səmimiyyətini, milli musiqimizin təsirini unutmayacaqlar.

***Festival həqiqətən də mükəmməl səviyyədə təşkil olunmuşdu. Qonaqlara adi məişət xidmətindən tutmuş səyahətlərinə qədər hər şey dəqiq ölçülüb-biçilmişdi. Qəbələyə gələn xarici ölkə musiqiçiləri, sənətkarlar, digər qonaqlar həm Azərbaycan mətbəxinin çeşid-çeşid nemətlərindən daddılar, həm qəlbləri fəth edən musiqiləri dinlədilər, həm də görməli yerləri gəzdilər. Qəbələyə gəlmiş qonaqların müxtəlif marşrutlar üzrə səyahətləri də təşkil edilmişdi. Onlar ətraf rayonların da mədəni həyatı və təbiəti ilə tanış oldular.***

● **Natiq MUSTAFAYEV,**
***Mədəniyyətşünaslıq üzrə EMM-in metodisti***